Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET



## V.V.Timoşenkonun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vladimir Vasilyeviç Timoşenko "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 24 noyabr 2022-ci il.**

*Eks-deputat V.Timoşenko - 80*

# O, Vətən olaraq ömürlük Azərbaycanı seçmişdir

**Adətən vətəni seçmirlər. Hər kəsin dünyaya gəldiyi, böyüyüb boya-başa çatdığı məkan onun vətənidir. Ancaq amansız tale elə gətirib ki, Vladimir Vasilyeviç bir də heç zaman dünyaya gəldyi, böyüyüb, boya-başa çatdığı doğma yurduna dönə bilməyəcək. Buna nə özünün, nə də kimsənin, heç prezidentlərin, insan hüquqları üzrə Ali Komissarın da gücü, imkanı çatmaz. Çünki onun doğma yurdu... Çernobıldır, 1985-ci ildə güclü partlayış baş vermiş AES-in yerləşdiyi, hələ neçə qərinə insan ayağı dəyməyəcək radiasiya zonasında qalmış, yalnız xəyallarda yaşada bildiyi unudulmaz məkan. Odur ki, Vladimir Vasilyeviç sonralar özünə vətən seçmək məcburiyyətində qalmış və əbədi Vətən olaraq Azərbaycanı seçmişdir!**

V.Timoşenkonun bioqrafiyasından:



*1942-ci il noyabrın 25-də anadan olmuşdur.* Ali Hərbi Zenit-Raket Məktəbini və Hərbi Akademiyanı bitirmişdir. Və tale elə gətirmişdir ki, ilk hərbi xidmətə 1962-ci ildə Bakıda kursant kimi başlamışdır. Sonralar uzun və çətin hərbi xidmət yolu keçərək, general rütbəsinədək yüksəlmiş və o yolu yenə Bakıda başa vurmuşdur. Keçmiş SSRİ-nin müxtəlif hərbi hissələrində alayın, diviziyanın, korpusun siyasi şöbə rəisi olmuşdur. Hərbi xidmətinin son illərində isə Cənubi Qafqazın 19-cu Hava Hücumundan Müdafiə Ordusunun Hərbi Şurasının üzvü kimi fəaliyyət göstərmişdir.

"Qırmızı ulduz", II və III dərəcəli "Vətənə xidmətə görə" ordenləri və bir çox medallarla təltif edilmişdir.

1990-cı ildən Azərbaycan Respublikasının Xalq deputatı, 1991-2005-ci illərdə Milli Məclisin üzvü olmuşdur.

Azərbaycan vətəndaşı kimi respublikanın Silahlı Qüvvələrinin quruculuğu işinə sanballı töhfə vermişdir.

Üç oğlu və iki qızı var. Böyük oğlu İqor atasının yolu ilə gedərək, Ali Hərbi Məktəbi bitirmişdir. Hazırda Ukrayna ordusunda general-leytenant kimi xidmət edir.İkinci oğlu Oleq iqtisadçıdır, Azərbaycan Dövlət İqtisad İnstitutunu bitirmişdir və hazırda Kiyevdə yaşayıb-çalışır. Kiçik övladları Bakının orta məktəblərindən birində oxuyurlar.

Özünün fəxrlə dediyinə görə əslən ukraynalı, qəlbən isə azərbaycanlıdır.

***

**1985-ci ildə V.Timoşenko yenidən** Azərbaycana gələndə sanki ağlasığmaz hadisə baş verdi - o, özünün ilk gənclik illərinə qayıtdı, ən böyük arzusu həyata keçdi. Axı, 1962-ci ildə 20 yaşlı kursant kimi hərbi təcrübəni məhz burada keçmişdi. Elə o vaxtdan bütün varlığı ilə Azərbaycana, onun səmimi, açıq ürəkli insanlarına bağlanmış, onlara heyran olmuşdu. Azərbaycana yenidən ayaq basanda qəribə bir ruh yüksəkliyi duymuşdu. Sanki uzun illər boyu qürbət ellərdə gəzib-dolaşdıqdan sonra doğma Vətənə qayıtmışdı. Belə də oldu: Azərbaycan onun üçün doğma vətənə çevrildi.

**Azərbaycan torpağına ilk dəfə qədəm qoyduğu zaman Vladiqafqaz Ali Hərbi Məktəbinin kursantı kimi Hövsanda təlim-təcrübədə olsa da, o vaxt kazarma şəraitində yaşadığından ölkəmizin adamları ilə ünsiyyət saxlamağa, onlarla yaxından tanış olmağa imkan olmamışdı. Təcrübə müddəti başa çatanda alay komandiri olmuş general-polkovnik Tofiq Ağahüseynov onu hərbi məktəbi bitirəndən sonra xidmət etmək üçün Azərbaycana qayıtmağa dəvət edəndə onun qəlbində qəribə bir sevinc oyanmışdı. Lakin iş elə gətirmişdi ki, o vaxt V.Timoşenko hərbi xidməti Uzaq Şimalda - Zapolyaryedə yerləşən Murmanskın və Çukotkanın ekstremal şəraitində, sonra Ukraynada, son illərdəisə Zaqafqaziya Hərbi Dairəsində korpusun siyasi şöbə rəisi vəzifəsində, ordu Hərbi Şurasının üzvü kimi davam etdirməli olmuşdu.**



Vladimir Vasilyeviç dünyanın mənzərəli, könül oxşayan guşələrini, kurort yerlərini az görməmişdir, lakin səmimi etiraf edir ki, onu ən çox cəlb edən yer məhz Azərbaycan olmuşdur. Buna görə də vaxtı çatanda onun Azərbaycanın Xalq deputatı seçilmək qərarına gəlməsi təsadüfi deyildi. Görünür, öz taleyini həmişəlik hədsiz sevdiyi bu günəşli diyarla, onun sadə, səmimi, xeyirxah adamları ilə bağlamaq fikrində idi. Bir vaxt çox nüfuzlu sayılan Leninqrad Hərbi Dairəsində yüksək vəzifə vəd edən "mərkəz"in - Moskvanın təklifindən qətiyyətlə imtina etməsi və o zaman SSRİ-nin müdafiə naziri olan marşal A.Şapoşnikova müraciətlə Azərbaycana ezam olunmasını xahiş etməsi də məhz bununla bağlı idi.

Yeri gəlmişkən, 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciədən xeyli əvvəl SSRİ müdafiə naziri D.Yazov da ona hərbi dairələrin birində yüksək vəzifə təklif etmişdi. Lakin V.Timoşenko bu təklifdən də qəti imtina etmiş,



həm özü, həm də övladları üçün sadəcə doğma ev yox, sözün həqiqi mənasında Vətən hesab etdiyi Azərbaycanda həmişəlik qalmağı qərara almışdı.

Vladimir Vasilyeviçin öz tarixi vətəni Ukraynaya qayıtması məsələsinə gəldikdə isə, bunu nə qədər istəsə də, bu, qeyd olunduğu kimi, artıq heç cür mümkün deyildi. Oraya qayıtmaq həddən artıq təhlükəlidir və yəqin ki, 100 ildən sonra da belə olacaqdır. Vladimir Vasilyeviçin ata evində keçirdiyi qayğısız uşaqlıq və yeniyetməlik illəri həmişəlik olaraq təhlükəli zonada qalmışdır. O illərdən onun yaddaşında yalnız Timoşenkolar ailəsinin və həmkəndlilərinin xoşbəxt həyatı barədə insanın qəlbini riqqətə gətirən xoş xatirələr qalmışdır.

**V.Timoşenko xoşbəxt uşaqlıq illərini xatırlayaraq deyir:**

- Hələ də gözlərimin önündədir, ailəmizdə həmişə qarşılıqlı hörmət və məhəbbət ab-havası hökm sürürdü. Atam heç vaxt anamın üstünə səsini qaldırmazdı. Anam bizim hamımız üçün əziz, sevimli idi. Ailəmiz mənim üçün ilk və ömürlük həyat məktəbi olmuşdur - mənəvi tərbiyə, humanizm və sevgi məktəbi. Xoşbəxtəm ki, həyat yoldaşım Qalina Mixaylovna da ailəmizin ən yaxşı ənənələrinə sadiq olmuş, övladlarımızı bu ruhda tərbiyə etmişdir.

Dünyada onun üçün ən müqəddəs və əziz olan işıqlı xatirələrini general onilliklərin sınağından keçirərək, ən etibarlı yerə - Azərbaycana gətirmişdir. Bu torpağa, Azərbaycan xalqına hədsiz sədaqət, onun çoxəsrlik tarixinə, mədəniyyətinə, adət və ənənələrinə xüsusi ehtiram bəsləyən general V.Timoşenko məhz belə hesab edir. Buna görə də o, Azərbaycanın hər bir şəhərində, hər bir kəndində, hər bir evdə həmişə istəkli qonaqlardan biri kimi qarşılanmışdır və indi də belədir.

Azərbaycanda kimdən soruşsanız ki, "Vladimir Vasilyeviç Timoşenkonun hansı xüsusiyyəti daha çox xoşunuza gəlir, siz nəyə görə ona bu cür hörmət və məhəbbət bəsləyirsiniz?", cavabında eşidəcəksiniz: "Ona görə ki, ölkəmizin problemləri və qayğıları ona yabançı deyildir. O, xalqımızın problemlərinə biganə qalmır, düşmənlərimizin, bədxahlarımızın Azərbaycana hər hansı əsassız hücumlarına qarşı həmişə kəskin münasibət bildirir. O, həmişə bizimlədir, bizim adamdır, bizim generaldır. Belə olmasaydı, o, yüksək səviyyəli müxtəlif görüşlərdə uca tribunalardan çıxışlarında "bizim ölkə", "bizim Azərbaycan xalqı" sözlərini bu cür qürur və səmimiyyətlə deyə bilməzdi".

Ötən əsrin 90-cı illərinin əvvəllərinə kiçik bir ekskurs... Cəbhəyanı rayonların birində qəm-qüssə içində olan bir ana ömründə ilk dəfə gördüyü Vladimir Vasilyeviçə yaxınlaşaraq, onu qucaqlayıb, hönkür-hönkür ağlamışdı. General sövqtəbii hiss etdi ki, oğlunu döyüşdə itirmiş bu qadın bəlkə də onu özünün qardaşı hesab edərək, ondan kömək istəyir. General özü də göz yaşlarını saxlaya bilməmişdi. Axı necə edəydi?.. Çox təəssüf ki, o, bir general kimi bu Ananın oğlunu qoruyub saxlaya bilməmişdi (hərçənd müharibədə itkilər qaçılmazdır). Buna görə də V.Timoşenkonun daxili əzabı, kədəri ikiqat, üçqat artırdı. Görünür, həmin Ana



generalın timsalında təkcə hərbçi deyil, həm də həssas, doğma bir insan görürdü. Bax, beləcə, ukraynalı qardaş özünün azərbaycanlı bacısı ilə birlikdə ağlayırdı. O görüş həmin qadının həyatına toplaşmış yaşlı kişiləri, gənc əsgərləri də kövrəltmişdi...

**General V.Timoşenko sonralar bu kədərli səhnəni xatırlayaraq etiraf etmişdi:** "Yalnız o vaxt ömrümdə ilk dəfə həqiqi mənada hiss etdim ki, mənim də ürəyim var və bəzən onun üçün çox çətin olur...".

Bu gün Azərbaycanda böyüklü-kiçikli hamı Vladimir Vasilyeviçə xüsusi ehtiram bəsləyir. Özü də təkcə ona görə yox ki, o, ölkəmizin üzləşdiyi faciələri, dərdləri bizimlə bərabər yaşayır, həm də ona görə ki, o, Azərbaycana ürəkdən yanır, o, xalqımızla tam qaynayıb-qarışmışdır, artıq çoxdan bəri bu xalqın problemləri və qayğıları ona yabançı deyil. O, Azərbaycanın indiki uğurlarına, dövlət başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizdə baş verən müsbət dəyişikliklərə, xüsusən də qədim Qarabağımızın, müqəddəs Şuşamızın yağı düşməndən azad olunmasına hamı kimi ürəkdən sevinir.

Vladimir Vasilyeviç üç dəfə dalbadal xalqın yüksək etimadını qazanaraq, Azərbaycan Milli Məclisinə deputat seçilmiş və gündəlik yorulmaz işi ilə, layiqli nümayəndəsi olduğu xalqımıza təmənnasız xidməti ilə bu diyara sədaqətini sübut etmişdir. Ötən illər ərzində onun gördüyü işləri saymaqla bitməz: Ermənistanın Azərbaycana qarşı açıq təcavüzündən, Qarabağ probleminin həllində keçmiş Sovet İttifaqının və Qərb ölkələrinin laqeyd, şərəfsiz mövqe tutmasından hiddətlənmiş sovet ordusunun generalı V.Timoşenko respublikadakı döyüş texnikasının buradan çıxarılaraq Rusiyaya aparılmasına özünün gələcək karyerasını və hətta həyatını da riskə məruz qoyaraq hər vasitə ilə müqavimət göstərmişdi. O, bədnam 366-cı motoatıcı alayın Xankəndidən çıxarılmasını birincilər sırasında tələb etmiş, Yerevandan mütəmadi aldıqları "mükafat" müqabilində erməni daşnaklarının işğalçılıq ideyalarını dəstəkləyənlərə - Vilnüs hadisələrində "ad çıxarmış" qəddar general V.Açalov, xalqımızın qatı düşməni Q.Starovoytova və başqalarına qarşı açıq mübarizə aparmışdır. Buna görə də təsadüfi deyildi ki, 1993-cü ildə "Moskovski komsomolets" qəzetində ermənilərin vasitəsi ilə təşkil edilmiş "General kim idi və indi kimdir?" sərlövhəli materialda V.Timoşenko bir sıra başabəla "sərkərdə"lərdən fərqli olaraq "böyük" Ermənistanı deyil, Azərbaycanı dəstəkləməkdə, "satqınlıqda" ittiham edilirdi.

**Rusiyada müəyyən dairələr 1 milyard dollar dəyərində ən müasir hərbi texnikanı Ermənistana "peşkəş" edib, pulsuz verəndə general V.Timoşenko Azərbaycana qarşı bu xəyanətlə əlaqədar məxsusi olaraq iki dəfə Moskvada olmuş, yüksək hərbi və siyasi dairələrdə çıxış edərək, bu qanunsuz aksiyanı kəskin tənqid etmiş, Rusiyanın dövlət və hərbi strukturlarını inandırmağa çalışmışdı ki, işğalçı siyasət yeridən Ermənistanın hərbiləşdirilməsi yolverilməzdir. Bu hadisədən az sonra "Qolos Armenii" qəzetində dərc olunmuş "General Timoşenko kimin adından danışır?" sərlövhəli məqalədə Azərbaycan parlamentinin bu mübariz üzvünün ünvanına iyrənc fikirlər, yersiz ittihamlar söylənilmişdi.**

V.Timoşenko bir general və Azərbaycan Milli Məclisinin deputatı kimi respublikamızın Milli Ordusunun yaradılmasında da çox fəal iştirak etmiş, bu işə sanballı töhfə vermişdir. Məhz buna görə Azərbaycan xalqı ona üç dəfə yüksək etimad göstərərək, ölkə parlamentinə deputat seçmişdir. Və o, Milli Məclisdə nüfuzlu bir siyasətçi kimi öz istedadını və bacarığını maksimum dərəcədə göstərə bilmişdir.

Vladimir Vasilyeviç Milli Məclisin Dövlət Quruculuğu və Hüquq Siyasəti Komissiyasının üzvü kimi respublikada qanun quruculuğu işinə də mühüm töhfə vermişdir. Milli Məclisdə işlədiyi 15 il ərzində heç vaxt Azərbaycanın sadə vətəndaşlarının maraqlarına bu və ya digər şəkildə zidd ola biləcək sənədlərə heç vaxt qol qoymamış, səs verməmişdir.

V.Timoşenko respublikada o qədər yüksək hörmət və etimad qazanmışdır



ki, MDB ölkələrinin Parlamentlərarası Assambleyasında Azərbaycanı təmsil etmək şərəfi ardıcıl olaraq bir neçə il ona - ölkəmizin sədaqətli, vətənpərvər oğluna həvalə edilmişdir. Bu ondan irəli gəlirdi ki, nəinki Milli Məclisdə, hətta bütün ölkədə əminlik var idi ki, Vladimir Vasilyeviç Azərbaycanın mənafeyini həmişə ləyaqətlə, ən yaxşı, uğurlu şəkildə müdafiə edəcəkdir. Və heç də təsadüfi deyildi ki, MDB-nin Parlamentlərarası Assambleyasının mahiyyətcə bizim prinsiplərimizə uyğun olmayan üç qanunvericilik aktına məhz onun təkidi ilə veto qoyulmuşdu.

Vladimir Vasilyeviç vaxtilə Milli Ordunun və Azərbaycanın sadə sakinlərinin taleyindən narahat olaraq xalqımızın ümummilli lideri, Azərbaycan Prezidenti Heydər Əliyevə dəfələrlə müraciət etmiş, özünün dəyərli təkliflərini irəli sürmüşdür. Onun əsas məqsədi həmişə dövlətimizin hərbi və iqtisadi qüdrətinin artırılması, xalqın sosial vəziyyətinin yaxşılaşdırılması üçün bütün qüvvələri və potensial imkanları səfərbər etmək olmuşdur.

General V.Timoşenko haqqında, respublikamızın ictimai həyatında onun fəal iştirakı, parlamentdəki fəaliyyəti, xalqımız üçün taleyüklü məsələlərin həlli zamanı dərindən əsaslandırılmış nitqləri və çıxışları barədə çox danışmaq, çox yazmaq olar. Ancaq burada cəmi iki faktı göstərməklə də kifayətlənmək olar.



**Respublikamızın ən ağır günlərində - 1992-ci ilin aprel-may aylarında V.Timoşenko Azərbaycanın təəssübünü hər zaman elə özü kimi çəkən Vladimir Malinovun təşəbbüsü ilə yaradılmış beynəlmiləl batalyonun formalaşmasında iştirak etmiş, batalyonun Qarabağ cəbhəsində bir sıra uğurlu döyüş əməliyyatları aparmasına nail olmuşdu. Həmin beynəlmiləl batalyonun cəsur döyüşçülərindən biri də doğma vətəni Azərbaycanı odlu məhəbbətlə sevən bakılı yəhudi balası Albert Aqarunov idi. Son ağır döyüşlərdə öz həyatı bahasına Şuşanı müdafiə edən Albert erməni faşistlərinin mövqelərinə ağır zərbələr endirmiş, onların xeyli döyüş texnikasını, o cümlədən bir atəşlə iki tankı eyni zamanda vurmuş və canlı qüvvəsini məhv etmişdi. Son damla qanına qədər düşmənə qarşı igidliklə vuruşmuş Albert ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür.**

90-cı illərdə vaxtaşırı Rusiyada və Ukraynada olan Vladimir Vasilyeviç Azərbaycanda baş verən hadisələr, Qarabağ müharibəsi haqqında, erməni faşistlərin vəhşilikləri barədə həqiqəti qonşu xalqlara çatdırmağı həmişə özünün vətəndaş borcu, oğul borcu hesab etmişdir. 1993-cü ildə Qarabağ münaqişəsinin tarixi və onun acı nəticələri haqqında Ukrayna televiziyası ilə açıq, cəsarətli çıxışı Kiyevin, bütün Ukraynanın sakinlərini son dərəcə heyrətləndirmişdi. Onlar xalqımız haqqında, kənardan dəstəklənən Ermənistanın Azərbaycana qarşı təcavüzü, Qarabağ müharibəsi və onun əsas səbəbləri, erməni faşistlərinin məkrli işğalçılıq niyyətləri və vəhşilikləri barədə həqiqəti ilk dəfə məhz öz məşhur həmyerlilərinin dilindən eşitmişdilər. Həmin çıxış o qədər güclü əks-səda doğurmuşdu ki, Ukrayna dövlət televiziyası o çıxışı dəfələrlə təkrarən efirə verməli olmuşdu.

Azərbaycan ətrafında yaradılmış informasiya blokadasının aradan qaldırılması işinə general Timoşenkonun bir töhfəsi də ondan ibarətdir ki, o, keçmiş İttifaqın müxtəlif guşələrində yaşayan dostlarını vaxtaşırı respublikamıza dəvət edir. Onlardan biri - Leninqradlı məşhur yazıçı Arkadi Pençuk bir həftə respublikamızda olduqdan sonra rayonlardan birində rəhbərliyin onun şərəfinə təşkil etdiyi qəbulda iştirakı zamanı ehtiyatla soruşmuşdu: "Yoldaşlar, mən həqiqəti deyə bilərəmmi?". Biləndə ki ondan yalnız həqiqəti gözləyirlər, yazıçı sözünə davam edərək demişdi: "Əziz dostlar! Mənim 55 yaşım var. İndiyə qədər heç vaxt Azərbaycanda olmasam da, etiraf edim ki, bura gələnə qədər sizə münasibətdə bağışlanılmaz günah işlətmişəm. Buna görə sizdən dönə-dönə üzr istəyirəm. Nədənsə mən həmişə elə hesab edirdim ki, Azərbaycan geridə qalmış, inkişaf etməmiş bir ölkədir. Lakin bu bir həftədə Vladimir Vasilyeviçin mənə göstərdikləri və söylədikləri, özümün də gördüklərim, şahidi olduğum hadisələr mənim şüurumda hər şeyi yaxşılığa doğru tamamilə alt-üst etdi. Bu gün mənim ürəyim ağrıyır ki, buraya gələnə qədər sizin ölkəniz barədə yaxşı fikirdə olmamışam. Çox təəssüf ki, Rusiyada, Ukraynada, Belarusda on milyonlarla insan Azərbaycan haqqında hələ də səhv düşünür...".

Bəli, öz ölkəsinin ərazi bütövlüyü uğrunda ədalətli mübarizə aparan Azərbaycana başqa xalqların münasibətini yaxşılığa doğru dəyişmək İnsanın, Vətəndaşın borcudur. General V.Timoşenko belə hesab edir.

Buna görə də generalın vaxtilə Ukraynanın Azərbaycandakı səfiri olmaq təklifindən imtina etməsinin (əslində o, onsuz da səfirdir, lakin Fövqəladə səlahiyyətli səfir yox, Fövqəladə əhəmiyyətli səfirdir), Rusiyanın dövlət strukturlarında ona dəfələrlə edilmiş yüksək vəzifə təkliflərini qəbul etməməsinin səbəbi başa düşüləndir. O, öz Vətəninin həqiqi vətənpərvər oğlu kimi ömrü boyu sədaqətlə xidmət edəcəyinə and içdiyi ölkənin - Azərbaycanın vətəndaşı olaraq qalır. General belə hesab edir ki, burada - respublikamızda tutduğu vəzifə, mövqe ona təklif edilən digər vəzifələrdən üstündür.

**Azərbaycanın Vətəndaşı olmağı general özü üçün ən yüksək vəzifə hesab edir.**

**Rəhman ORXAN,**
**respublikanın Əməkdar jurnalisti**